UOT 332.122

*Köçəri Şamil oğlu ALLAHVERDİYEV*
*c.e.n., dosent,*

*Cavid Rövşən oğlu MƏMMƏDOV*
*Azərbaycan Kooperasiya Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA XÜSUSİ İQTİSADİ ZONALARIN YARADILMASI VƏ ƏRAZİ TƏŞKİLİNİN COĞRAFİ XÜSUSİYYƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** Naxçıvan MR-in müasir sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması tələblərinə cavab verə bilən, yerli təbii və iqtisadi potensialdan istifadəyə əsaslanan təsərrüfatın sahə və ərazi strukturunun formalaşmasının elmi-metodiki təhlilini aparmaqdan və əməli tövsiyələr hazırlamaqdan ibarət olmuşdur.

**Tədqiqatın metodologiyası-** tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, iqtisadi-riyazi üsul və analiz metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Tədqiqat işinin nəticələri və təklifləri Naxçıvan Muxtar Respublikasında sənaye və kənd təsərrüfatı və nəqliyyatın fəaliyyətinin inkişafında, təbii iqtisadi potensialın yeni səviyyələrdə mənimsənilməsində, müasir inkişaf səviyyəsi və meyillərinin mənimsənilməsində, sahələr və müəssisələrarası istehsal əlaqələri və ixtisaslaşmanın qurulmasında faydalı ola bilər.

**Tədqiqatın nəticələri** –tədqiq edilən məsələlər onu göstərir ki, Yerli təbii resurslardan, ixtisaslı əmək ehtiyatlarından və maddi-texniki bazadan səmərəli istifadə edə biləcək sosiyal yönümlü və ekoloji cəhətdən təmiz olan təsərrüfat strukturunun formalaşdırılması və azad iqtisadi zonaların yaradılmasına müsbət təsir etməlidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – nəzəri-metodoloji məlumatlar ümumiləşdirilərək potensial resurs bazası, iqtisadiyyatın inkişafında baş verən müsbət meyillər, təsərrüfatçılığın səmərəli ərazi təşkili formaları və istiqamətləri təhlil edilmişdir. Məqalənin elmi yeniliyi müəllif tərəfindən azad iqtisadi zonaların müxtəlif funksional tiplərinin ərazi təşkilinin elmi-metodiki əsasları ilə bağlıdır. Məlum olmuşdur ki, təsərrüfatın ərazi təşkilinin mütərəqqi formaları qaneedici səviyyədə deyil.

***Açar sözlər: azad iqtisadi zona, dayaq mərkəzləri, inkişaf zonaları, xüsusi azad iqtisadi zona rejimi.***

## *Giriş*

Azərbaycanda AİZ-in yaradılması istiqamətində ilk təşəbbüsü və konkret əməli fəaliyyəti BMT-nin respublikamızdakı nümayəndəliyi irəli sürmüşdür. Həmin nümayəndəlik Sumqayıt şəhərində beynəlxalq metodikaya və standartlara uyğun xüsusi azad iqtisadi zonanın yaradılmasının tam layihəsini vermiş və növbəti belə zonanın Naxçıvan Muxtar Respublikasında salınması istiqamətində müəyyən təkliflər irəli sürülmüşdür.

A.N.Qəribov özünün dissertasiya işində Naxçıvan Muxtar Respublikasında müasir sosial-iqtisadi inkişaf meyillərini, təbii və əmək potensialını və s. ətraflı nəzərdən keçirərək burada AİZ-ın yaradılmasını əsaslandırmışdır [1, s.166]. Müəllifin apardığı tədqiqatlardan görünür ki, AİZ-in Naxçıvan Muxtar Respublikasının bütöv ərazisində yaradılmasını nəzərdə tutur və ona görə də konkret ünvan-rayon və şəhər yeri göstərmir. Qeyd etmək lazımdır ki, AİZ-lər ölkənin bir şəhərində və yaxud məhdud ərazisi daxilində yaradılır və özünün gömrük sərhədləri, maliyyə sistemi, polisi və s. olur və bir çox hallarda, hətta onun ətrafına hasar çəkilir. Bu tələbatlar baxımından Naxçıvan ərazisinin bütövlükdə azad iqtisadi zonaya çevrilməsi onun dövlət və təsərrüfat orqanlarının funksiyasını xeyli məhdudlaşdırardı. Bu nöqteyi-nəzərdən Naxçıvan MR daxilində AİZ-

lərin yaradılması üçün daha əlverişli nəqliyyat-coğrafi və tranzit mövqeyə malik olan konkret mənbələrin seçilməsi daha məqsədəuyğun olardı. Yığcam ərazidə yerləşdirilən AİZ-lər dövlət orqanlarının gündəlik fəaliyyətinə maneçilik törətməyəcəkdir.

**Xüsusi iqtisadi zona rejiminin Naxçıvan MR üçün pozitiv nəticələri ola bilər:**

Region iqtisadiyyatının restrukturizasiyası, sahibkarların eksklav şəraitə uyğunlaşması, yeni çoxsaylı müəssisələrin formalaşması və ənənvi məhsul istehsalının yeni rəqabətə davamlı məhsulların istehsalı ilə əvəz olunması, regionun istehlak bazarının doldurulması, regiondaxili rəqabətin inkişafı, əhalinin məşğulluğunun daha da yüksəldilməsi Muxtar Respublika büdcəsinin gəlirlərinin artımı və s. [2, s. 18].

Ümumiyyətlə, hesab edirik ki, Naxçıvan MR daxilində AİZ-lərin müxtəlif formaları, optimal mərkəzləri, inkişaf şəraiti və amillərin ətraflı nəzərdən keçirilməsi də faydalı ola bilər. Diyarda AİZ-lərin səmərəli təşkili və fəaliyyətini təmin edən başlıca şərtlər bunlardır: yeni və mütərəqqi təsərrüfatçılıq formaları yaratmaq hesabına iqtisadiyyatın inkişafına nail olmaq; xarici sərmayəçilərin, xüsusilə qonşu Türkiyənin geniş imkanlarını AİZ-in yaradılması layihəsinə cəlb etmək; Azərbaycan və Naxçıvan MR-in olduqca əlverişli nəqliyyat qovşağı və tranzit mövqelərinin üstünlüklərindən geniş istifadə etmək; Naxçıvan MR-in zəngin və müxtəlif mineral-xammal, aqroiqlim potensialından, yüksək hazırlıqlı sərbəst işçi qüvvəsindən istifadə etmək və s.

Sənayeləşmə prosesi sürətlə gedənTürkiyə üçün yaxın qonşuluqda yerləşən Naxçıvanın təbii ehtiyatlarının mənimsənilməsində və AİZ-in yaradılmasında iştirakı xeyli cəlbedici olardı. Bu ölkə bazar iqtisadiyyatı yolunda xeyli irəliləyib və ona çoxlu enerji, müxtəlif mineral-xammal tələb olunur. Türkiyənin beynəlxalq sahədə topladığı təcrübədən, xüsusilə Yaxın Şərq və Avropa ölkələri ilə uzun illərdən bəri fəaliyyət göstərən əlaqələrindən, Naxçıvan AİZ-in inkişafında da istifadə edilə bilər.

Digər mühüm mənbə, fəal işgüzarlığı ilə fərqlənən və müəyyən sərmayə toplayan ölkədə və xaricdə çalışan Naxçıvan əsilli iş adamlarının böyük güzəştlərlə AİZ-in yaradılmasına cəlb edilməsi olardı.

Müasir dövrdə AİZ-in yaradılmasının çox vacib şərtlərindən biri ölkənin əlverişli iqtisadi-coğrafi mövqeyi və dünya bazarına çıxışını təmin edən nəqliyyat-kommunikasiya sisteminin yaxşı inkişaf etməsidir. Bu nöqteyi-nəzərdən, Naxçıvanın imkanları xeyli genişdir.

10 noyabr 2020-ci il tarixli üçtərəfli imzalanmış Bəyanatdan sonra Naxçıvanın blokadası aradan qaldırılacaqdır. O zaman qlobal Qərb-Şərq (İstanbul-Kars-Yerevan-Naxçıvan-Bakı) və Şimal-Cənub (Moskva-Bakı-Tbilisi-Yerevan-Culfa-İran körfəzi) istiqamətində gediş-gəliş açılacaq və bütövlükdə region ölkələrinə böyük xeyir gətirəcəkdir.

Müasir dövrdə dünya praktikasında fəaliyyət göstərən AİZ-lər aşağıdakı iki tipə ayrılır: 1.İstehlak tipli AİZ-lər; 2.Ticarət və xidmət tipli AİZ-lər. Onların hər ikisi Naxçıvan Muxtar Respublikasının yerli şəraitinə daha çox münasibdir.

Naxçıvan MR-də dağ-mədən sənayesi yönümlü AİZ-lərin də yaradılmasına üstünlük verilə bilər. Əlbəttə, bu heç də ticarət, kənd təsərrüfatı məhsulları istehsalı və emalı yönümlü AİZ-in inkişafını inkar etmir.

Naxçıvanın sənaye əhəmiyyətli faydalı qazıntıları ətraflı öyrənilib və bəziləri, hətta istifadə olunurdu. Naxçıvan MR-də istehsal yönümlü AİZ-lərin yaradılmasında istifadə oluna bilən ən iri faydalı qazıntılar bunlardır: sink, qurğuşun, mis, molibden, gümüş, qızıl, geniş çeşiddə tikinti materialları, daş duz, mineral bulaqlar və s.

Naxçıvanda istehsal xarakterli AİZ-lərin yaradılması aşağıdakı istiqamətdə aparıla bilər:

1.Yerli mineral filiz və duz ehtiyatlarının istifadəyə cəlb edilməs;

2. Mineral müalicə bulaqlarının istifadəsi əsasında güclü sudoldurma kompleksinin inkişaf etdirilməsi və onun məhsullarının ixracata göndərilməsi;

3. İntensiv əkinçilik-üzümçülük, tütünçülük, bağçılıq, baramaçılıq və başqa sahələri ixtisaslaşdırmaq və onların məhsullarının kütləvi ixracını təşkil etmək;

4. Güclü müalicə-kurort kompleksinin yaradılması və s.

Naxçıvan Muxtar Respublikası ərazisində AİZ-lər üçün daha münasib mərkəzlərin seçilməsi və onların ətraflı təhlilinin aparılması çox vacib iqtisadi-coğrafi məsələlərdəndir.

Belə seçim üçün aşağıdakı coğrafi şərait nəzərə alınmalıdır:

- təklif olunan konkret ərazilərin nəqliyyat-coğrafi mövqeyi;
- qonşu ölkələrə çıxışın olması;
- bu ölkələrin inkişaf səviyyəsi və sərmayə imkanları;
- təbii və əmək ehtiyatlarına yaxınlığı. Azad zona üçün seçilmiş hər bir ərazinin ətraf rayonları özlərinə meyletdirmə potensialı da nəzərə alınmalıdır.

**İqtisadi coğrafiyada geniş yayılmış ərazilərin dayaq mərkəzləri və inkişaf zolaqlarının AİZ-lərin yaradılmasında faydası**

Naxçıvan Muxtar Respublikası AİZ-lərin yerləşdirilməsində əhəmiyyət kəsb edən belə əsas inkişaf oxu rolunu Ordubad-Culfa-Naxçıvan-Şərur- Sədərək-İqdir (Türkiyə) magistral nəqliyyat sistemi oynaya bilər. Göstərilən inkişaf zolagının əsasını Türkiyənin İqdir şəhərinə və Bakı, İran (Fars körfəzi) istiqamətlərinə çıxışı olan güclü nəqliyyat-kommunikasiya sistemləri təşkil edir. Göstərilən nəqliyyat sistemləri Naxçıvan AİZ-lərin həm daxili əlaqələrini, həm də xarici bazarlara çıxışını təmin edir.

Bu magistral xətt yalnız o vaxt AİZ-in yaradılmasında güclü amilə çevrilə bilər ki, onun Türkiyə Cümhuriyyətinin İqdir şəhərinə olan çıxışı xeyli genişləndirilsin.

Bütün deyilənlər göstərir ki, Naxçıvan MR-də göstərilən inkişaf zolağı üzərində AİZ-lərin yaradılması üçün məntəqələrin seçilməsi həm geosiyasi və həm də iqtisadi baxımdan səmərəli variant hesab oluna bilər.

Göstərilən faktlar əsasında Naxçıvan Muxtar Respublikasında aşağıdakı funksional tipli AİZ-in yaradılması layihəsi təklif olunur: Culfa və Sədərək sərhədyanı azad ticarət mərkəzlərinin, Şaxtaxtı qarışıq tipli ticarət – istehsalat mərkəzi və Babək rayonu ərazisində irimiqyaslı istehsal istiqamətli xüsusi azad iqtisadi zonanın yaradılmasını ilkin variant kimi təklif etmək olar.

**Culfa sərhədyanı azad ticarət mərkəzi**

Bu azad ticarət mərkəzi tranzit nəqliyyat yollarının keçdiyi və qovşağı üzərində əlverişli coğrafi mövqedə yerləşir.Ticarət mərkəzinin yaradılmasının başlıca məqsədi Culfanın əlverişli nəqliyyat-coğrafi mövqeyinin üstünlüklərindən istifadə edərək müxtəlif istiqamətlərdən buraya mal gətirmək və onların ölkələrarası ticarətini təşkil etməkdir.

Culfa sərbəst ticarət mərkəzinə Culfa rayonunun özünü və qonşu Ordubadı aid etmək olar. Buradan Azərbaycana, Türkiyəyə və oradan da Qərbi Avropaya, İrana, oradan da Fars körfəzinə, Ermənistana dəniz və avtomobil yollal çıxır. Hazırda bir sıra Avrasiya ölkələrinin iştirakı ilə yaradılması layihələşdirilən “Şimal-Cənub” istiqamətli qlobal dəhliz, əlverişli nəqliyyat- tranzit imkanları Culfa keçidinin əhəmiyyətini artırır. Bu layihədə nəzərdə tutulduğu kimi, Azərbaycan Astanasından keçərək İran dəniz yolu şəbəkəsinə qoşularaq yeni xətt Culfanı da birləşdirərək Naxçıvan Muxtar Respublikasını blokadadan qurtara bilər.

Culfanın bu əlverişli keçid mövqeyindən hələ lap qədimdən İpək Yolu və ipək ticarəti kimi istifadə olunurdu. Tarixi İpək Yolunun üzərində yerləşdiyindən keçmişdə burada iri ipək anbarları tikilmişdir və iri ipək ticarəti inkişaf etmişdir. Bu şəhərin İran İslam Respublikası ilə iqtisadi inteqrasiyasını, sərhədyanı ticarəti inkişaf etdirmək və digər müəssisə və firmalar yaratmaq üçün geniş imkanlar vardır. Araz çayı üzərində yerləşdiyinə görə digər ərazilərlə müqayisədə su ilə təchizatı yaxşıdır, gələcəkdə bu çayın üzərində yeni SES tikilməsi imkanı da müəyyən edilmışdir.

Culfa rayonunun yerləşdiyi yer və ona yaxın ətrafdakı ərazilər müxtəlif təbii ehtiyatlarla zəngindir. Bunlardan Paragaçay və Ağdərə molibden, gümüş, mis, qurğuşun, polimetal filizləri, qızıl, Culfa şəhəri yaxınlığındakı Darıdağ mərgümüşlü mineral suları, gəc və odadavamlı gil materiallarını və s. göstərmək olar.

Göstərilən minerallar xammal ehtiyatlarının bir çoxunun (polimetal, gil, gəc) emalını düzən ərazidə yerləşən, nəqliyyat vasitələri və su ehtiyatları ilə yaxşı təmin olunan Culfa şəhərində aparmaq daha məqsədəuyğun olardı. Belə halda, gələcəkdə Culfa sərbəst ticarət mərkəzinin ixtisas

yönümünü genişləndirərək orada dağ-mədən və digər sənaye sahələrini inkişaf etdirməklə ticarət yönümlü AİZ-dən istehsal tipli iri AİZ-in yaradılmasına keçmək olar.

**Babək AİZ-in yaradılması**

Bunun üçün təklif edilən yer əlverişli iqtisadi coğrafi mövqe və yüksək infrastrukturu ilə fərqlənir. Belə ki, o, muxtar respublikanın ortasında, düzən ərazidə, Naxçıvan şəhər mərkəzinə yaxın magistral və yerli yolların kəsişdiyi sahədə yerləşir. Bu iqtisadi zonaya meyil edən ətraf ərazilərə Naxşıvan şəhərini və Şahbuz inzibati rayonunu daxil etmək olar. Göstərilən bölgələrlə birlikdə Babək AİZ-in sahəsi 2220 $km^2$, əhalisi 157,8 min nəfər təşkil edir, özü də həm sahəsinə və həm də əhalisinə görə ən böyük AİZ-dir.

AİZ-in mərkəzi kimi Naxçıvan şəhəri əvəzinə Babək rayonu ərazisinin təklif edilməsi aşağıdakı səbəblərə bağlıdır:

- bir qayda olaraq paytaxt şəhərlər AİZ mərkəzi kimi götürülmür;
- yeni təklif olunmuş Babək rayonu isə təsərrüfatca zəifdir və inkişafına böyük ehtiyac vardır;
- boş torpaq sahələrinə, sərbəst əmək ehtiyatlarına malikdir;
- nəhəng duz mənbələrinin üstündə yerləşir.

Hazırda regionda yaranmış geosiyasi baxımdan Babək AİZ-nın respublikanın ortalığında yerləşməsi, şimaldan dağ silsiləsi, cənubdan Araz su qovşağı ilə əhatələnməsi onun təhlükəsizliyinin təmin olunmasında müsbət rol oynaya bilər. Su qovşağına yaxınlığı həm də onun suya olan tələbatının ödənilməsinə kömək edir. [3.s.179].

Babək AİZ kooperasiya yolu ilə Naxçıvan MR rayonlarında hasil edilən bir sıra digər xammal növlərini və yarımfabrikatları tam istehsal silsiləsindən keçirərək bir çox hazır məhsullar almağı həyata keçirə bilir.

AİZ-in yaradılması baxımından ilkin əhəmiyyət kəsb edən daş duz yataqlarıdır. Babək rayonu ərazisində yerləşən Duzdağ, Nehrəm və başqa daş duz yataqları muxtar respublikanın mərkəzində, Naxçıvan şəhərindən 12 km, Baş-bası dəmiryol stansiyasından isə 10 km aralıqda yerləşir. Duz mədənlərini Naxçıvan şəhəri ilə avtomobil və qrunt yolları birləşdirir.

Naxçıvan daş duz yataqları Azərbaycanda ən iri və yeganə yataq olub, ümumi ehtiyatı 1,5 milyard ton, sənayedə istismar üçün hesablanmış A-B-SI kateqoriyası üzrə ehtiyatları isə 828,9 mln tondur [4, s. 372].

Naxçıvan duz ehtiyatlarından geniş istifadə etmək məqsədilə əvvəllər də müxtəlif layihələr hazırlanmışdır. Daha əlverişli bir layihə 1960-cı ildə akademik Y.Məmmədəliyevin təklif və köməkliyi ilə Azərbaycan EA İqtisadiyyat İnstitutunun əməkdaşlarının, xüsusilə A.A.Nadirovun tədqiqatları əsasında hazırlanmışdır və burada Naxçıvan daş duz mədənlərindən çıxarılan duzun qaynadılması və buxarlanması üsulu ilə keyfiyyətli “Ekstra” növlü xörək duzunun alınması texniki-iqtisadi cəhətdən əsaslandırılmışdır [4, s.248].

Lakin bu məsələni eşidən kimi, ermənilər Moskvadakı SSRİ Dövlət Plan Komitəsində yerləşən erməni rəhbər işçilərinin köməyi ilə Ermənistanın Avan adlı çox cüzi ehtiyatlara malik duz yataqlarından istifadə məsələsini ortaya atdılar [5, s.1] və buna mane oldular.

İkinci daha geniş layihə XX əsrin 70-ci illərində hazırlanmışdır və başlıca məqsədi Naxçıvanın duz ehtiyatları əsasında xörək duzu ilə yanaşı, həm də soda, xlor və başqa məhsullar istehsal edən dağ-mədən kimya kombinatının tikintisini nəzərdə tuturdu.

Babək AİZ tərkibində Naxçıvanın nəhənğ daş duz ehtiyatlarını istifadəyə verməklə ondan irihəcmli bir çox məhsullar istehsal edib Azərbaycana, Türkiyəyə və digər qonşu ölkələrə satmaq faydalı olar.

Babək AİZ daxilində, həmçinin respublikada mineral bulaqların ehtiyatlarından geniş istifadə edilə bilər. Bu məqsədlə Sirab, Badamlı və bir çox başqa mineral bulaqlardan Babək AİZ-ə boru kəmərləri çəkmək və gətirilən sular əsasında çox güclü sudoldurma, sintetik butulka istehsalını təşkil etmək mümkündür. Kənardan gətirilən müxtlif sintetik kimyəvi komponentlərin qarışığından burada sintetik butulka və qapaq istehsal etməklə məsələni həll etmək və mineral sudoldurmanın həcmini kəskin surətdə artırmaq mümkündür.

Beləliklə, Babək AİZ yerli təbii və əmək ehtiyatlarından, yaxşı inkişaf etdirilmiş nəqliyyat-infrastruktur bazasından istifadə edərək Naxçıvan Muxtar Respublikası ərazisində istehsal yönümlü iri AİZ mərkəzinə çevrilə bilər.

**Şaxtaxtı qarışıq tipli azad ticarət-istehsal mərkəzi**

Bu mərkəzi əlverişli nəqliyyat-coğrafi mövqeyi, zəngin yerüstü sərvətləri və güclü aqrar-sənaye kompleksi əsasında yaratmaq olar. Bu mərkəzin hazırda İranla sərhədyanı ticarəti inkişaf edir, Ermənistanda isə əvvəllər mövcud olan dəniz və avtomobil yolları bağlanıbdır.

Təklif olunan Şaxtaxtı mərkəzinin ümumi sahəsi 1200 $km^2$, əhalisi isə 110,7 min nəfərdən çoxdur. Yaradılıcaq bu zonanın ərazisində iri gümüş yatağı və əhəngdaşı, travertin, mərmər, qips və başqa tikinti materiallarının istifadəsi əsasında Şaxtaxtı qarışıq tipli mərkəzi yaratmaq olar. Hələlik bu ehtiyatlardan az miqdarda və özü də köhnə texnika ilə istehsal edilir. Ona görə də çoxlu tullantılar alınır və ərazisinin ekoloji mühiti çirklənir [3, s.183].

Naxçıvanın bu zonasında iri tikinti kompleksinin yaradılması və onun məhsullarının xarici bazarlara çıxarılması məsələlərində mərkəz müsbət rol oynaya bilər.

**Sədərək sərhədyanı sərbəst ticarət mərkəzi**

Türkiyə və İranın ərazi qonşuluğu ilə qarşılıqlı maraq əsasında Sədərək və İqdir ərazilərində bir-biri ilə bitişik şəkildə yaradılması təklif olunur. Bu iki şəhəri birləşdirən Ümid körpüsü Azərbaycandan Türkiyəyə və quru vasitəsilə bilavasitə Avropaya çıxan əhəmiyyətli bir keçiddir. Hazırda Sədərək və İqdir rayonları ərazisində sərhədyanı ticarət, intensiv gediş-gəliş və bir sıra digər əlaqələr həyata keçirilir.

Sədərək azad sərhədyanı ticarət zonasının sahəsi 200 $km^2$, əhalisi 12 min nəfərdir. Gələcəkdə Sədərək və İqdirin əlaqəsi əsasında iri azad ticarət zonası yaratmaq məqsədəuyğundur [3, s.183].

Ümumiyyətlə Naxçıvan MR-in əlverişli sərhədyanı mövqeyi, nəqliyyat-tranzit imkanı, zəngin təbii-iqtisadi potensialı əsasında burada tam miqyaslı Babək AİZ-in, Culfa və Sədərək azad ticarət mərkəzləri və Şaxtaxtı ticarət-istehsal profilli sərbəst zonanın yaradılması təklif olunur. Bu təklif ilkin variant xarakteri daşıyır, məntəqələrin yerlərinin seçilməsi və ümumiyyətlə, bu istiqamətdə aparılan tədqiqatları son hədd kimi hesab etmək olmaz. AİZ-lərin yaradılması gedişində bu tədqiqatın nəticələrindən istifadə edilməsi işə fayda verə bilər.

### *Nəticələr*

1. Naxçıvan Muxtar Respublikası daxilində AİZ-lərin yaradılması üçün daha əlverişli nəqliyyat-coğrafi və tranzit mövqeyə malik olan konkret məntəqələrin seçilməsi daha məqsədəuyğun hesab olunur.
2. Regionda yeni və mütərəqqi təsərrüfatçılıq formaları yaratmaq hesabına iqtisadiyyatın inkişafına nail olmaq, xarici sərmayələri, xüsusilə Türkiyənin geniş imkanlarını AİZ-in yaradılması layihəsinə cəlb etmək, Azərbaycan və Naxçıvan MR-in olduqca əlverişli nəqliyyat qovşağı və tranzit mövqelərinin üstünlüklərindən geniş istifadə etmək, Naxçıvan MR-in zəngin və müxtəlif mineral-xammal, aqroiqlim potensiallarından, yüksək hazırlıqlı sərbəst işçi qüvvəsindən istifadə etməklə AİZ-lərin səmərəli təşkili və fəaliyyətini təmin etmək mümkündür.
3. Fəal işgüzarlığı ilə fərqlənən və müəyyən sərmayə toplayan, ölkədə və xaricdə çalışan Naxçıvan əsilli iş adamlarının böyük güzəştlərlə AİZ-in yaradılmasına cəlb edilməsi çox böyük səmərə verə bilər.
4. Naxçıvan MR-in əlverişli iqtisadi-coğrafi mövqeyi və dünya bazarına çıxışını təmin edən nəqliyyat-kommunikasiya sisteminin yaxşı inkişaf etdirilməsi çox vacib amillərdən biri hesab olunur.
5. AİZ-lər üçün daha münasib mərkəzlərin seçilməsi və onların ətraflı təhlilinin aparılması çox vacib iqtisadi-coğrafi mərhələ olmaqla azad zona üçün seçilmiş hər bir ərazinin ətraf rayonları özlərinə meyletdirmə potensialı da nəzərə alınmalıdır.

6. Regionda AİZ-lərin yaradılması üçün məntəqələrin seçilməsi həm geosiyasi və həm də iqtisadi baxımdan səmərəli variant hesab oluna bilər.

7. Culfa sərbəst ticarət mərkəzinin ixtisas yönümünü genişləndirərək orada dağ-mədən və digər sənaye sahələrini inkişaf etdirməklə ticarət yönümlü AİZ-dən istehlak tipli iri AİZ-in yaradılması mümkündür.

## ƏDƏBİYYAT


1. Qasımov E.E. Naxçıvan MR təsərrüfatının ərazi formalaşma xüsusiyyətləri. Bakı Universitetinin xəbərləri. Təbiət elmləri seriyası. № 1. Bakı, 2005, s.164-169.
2. Azərbaycan Respublikası 2000-ci il yanvarın 13-də mal-qara və quşların sayı. Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı, 2000.
3. Qasımov E.E. Naxçıvan MR iqtisadiyyatının ərazi təşkili və inkişafının coğrafiyası. Bakı-2011.
4. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı-2008.
5. Heydər Əliyev. "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təqdimatına həsr olunmuş konfransda nitqi. "Azərbaycan" qəzeti. 26 oktyabr 2002-ci il.
6. Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Bakı-2004.


***Кочари Шамиль оглы Аллахвердиев***
***к.э.н., доцент,***

***Джавид Ровшан оглы Мамедов***
***Азербайджанский Университет Кооперации***

## Географические особенности создания и территориальной организации особых экономических зон в Нахчыванской Автономной Республике

***Резюме***

**Цель исследования** – проведение научно-методического анализа формирования отраслевой и территориальной структуры хозяйства, отвечающего требованиям улучшения современного социально-экономического положения Нахчыванской АР, основанного на использовании местного природного и экономического потенциала, и подготовка практических рекомендаций.

**Методика исследования** – в исследовательской работе использованы сравнительный анализ, логическое обобщение, системный подход, экономико-математический метод и методы анализа.

**Прикладная значимость исследования** – результаты и предложения исследовательской работы могут быть полезны в развитии промышленности и сельского хозяйства и транспортной деятельности в Нахчыванской Автономной республике, в освоении на новых уровнях природно-экономического потенциала, в освоении современных уровней и тенденций развития, в установлении отраслевых и межпредприятийных производственных связей и специализации.

**Результаты исследования** – изученные вопросы свидетельствуют о том, что формирование социально ориентированной и экологически чистой хозяйственной структуры, способной эффективно использовать местные природные ресурсы, квалифицированные трудовые ресурсы и материально-техническую базу, должно положительно влиять на создание свободных экономических зон.

**Оригинальность и научная новизна исследования** – обобщены теоретико-методологические данные, проанализирована потенциальная ресурсная база, положительные тенден-

ции развития экономики, формы и направления эффективной территориальной организации хозяйствования. Научная новизна статьи связана автором с научно-методическими основами территориальной организации различных функциональных типов свободных экономических зон.Оказалось, что прогрессивные формы территориальной организации хозяйства находятся не на должном уровне.

***Ключевые слова: свободная экономическая зона, опорные центры, зоны развития, режим особой свободной экономической зоны.***

***Kochari Shamil Allahverdiyev***
***associate professor,***

***Javid Rovshan Mammadov***
***Azerbaijan Cooperative University***

**Noxcivon geographical features of creation and territorial organization of Special Economic Zones in the Autonomous Republic.**

**Summary**

**The purpose of the study** – Noxcivon is to conduct a scientific-methodical analysis of the formation of the field and territorial structure of the farm based on the use of local natural and economic potential, which can meet the requirements of improving the modern socio-economic situation of the Ministry of Economy and develop practical recommendations.

**Methodology** – comparative analysis, logical generalization, systematic approach, economic-mathematical methods and analysis methods were used in the research work.

**Significance of the study** – results and suggestions of the research work Noxcivon can be useful in the development of industrial and agricultural and transport activities in the Autonomous Republic, mastering the natural economic potential at new levels, mastering modern development levels and trends, establishing industrial relations and specialization between industries and enterprises.

**The results of the study** – the issues studied show that the formation of a socially oriented and ecologically clean farm structure that can effectively use local natural resources, qualified labor resources and material and technical base should have a positive impact on the creation of Free Economic Zones.

**Originality / value** – theoretical-methodological data were summarized and analyzed potential resource base, positive trends in the development of economy, efficient territorial organization forms and directions of farming. The scientific novelty of the article is connected with the scientific-methodological basis of territorial organization of different functional types of Free Economic Zones by the author.It turned out that the territorial organization of the farm is not at a satisfactory level.

***Key words: Free Economic Zone, support centers, development zones, special free economic zone regime.***